**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) 90 illik yubileyi ilə bağlı təbrik**

**Hörmətli Ədalət müəllim,**

Sizi və bütün kollektivinizi, həmçinin tələbə və məzunlarınızı universitetin 90 illik yubileyi münasibətilə təbrik edir və yeni-yeni nailiyyətlər arzu edirəm.

Əsası 1930-cu ildə qoyulmuş və Qafqazın ən böyük təhsil müəssisələrindən biri olan UNEC iqtisadiyyatın müxtəlif sahələridə çalışan yüksək ixtisaslı kadrların hazırlanmasında xüsusi rola malikdir. Universitetin 70 illik yubileyində Ulu öndər Heydər Əliyevin iştirakı və söylədiyi gözəl sözlər dövlət tərəfindən təhsil müəssisələrinə verilən yüksək qiymətin göstəricisidir. "Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsil millətin gələcəyidir" sözlərinin müəllifi olan Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan təhsil siyasətinin davamı olaraq bugün də ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva təhsil sahəsinə xüsusi qayğı ilə yanaşır. Təhsil sahəsində həyata keçirilən islahatlar müasir tələblərə cavab verən təhsil müəssisələrinin yaranmasına və inkşafına şərait yaradır.

İnkişaf etmiş cəmiyyətlərdə təhsilin, təhsilin inkişafında isə müasir tələblərə cavab verən təhsil müəssisələrinin rolu danılmazdır. Məhz buna görə də, dövlət tərəfindən təhsil və elm sahəsinə göstərilən qayğının nəticəsi olaraq UNEC və digər müasir təhsil müəssisələrinin uğurlu fəaliyyəti ölkəmizin parlaq gələciyindən xəbər verir.

Universitetin bugünki tədris prosesinin, maddi-texniki bazasının, peşəkar kollektivinin və universitetdə həyata keçirilən tədqiqatların səviyyəsi çoxsaylı UNEC məzunlarından biri olaraq, şəxsən məni də sevindirir. Mən əminəm ki, UNEC-in nailiyyətləri və cəmiyyətimizə qazandırdığı ixtisaslı kadrların sayı gələcək illərdə daha artacaq.

Sonda bir daha Sizi və kollektivinizi yubiley münasibətilə öz adımdan təbrik edir gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm və təbrikimi məşhur Hindistan iqtisadçısı Amartya Senin sözləri ilə bitirirəm – "İnsan inkişafına investisiya edilmədən əldə edilən iqtisadi inkişaf dayanıqlı və etik deyil".

**Hörmətlə,**

**Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi,**

**Emin Hüseynov.**